

# Milli və strateji hədəf: Zəngəzur dəhlizi açılacaq

*Məşhur alman səyyahı və xadimi Kolmar fon-der-Holtsa yazırdı: "... Mən türk ilə iş barədə şərtləşəndə yazılı müqavilə bağlamadan keçinirəm. Çünki onun bir kəlmə sözü kifayətdir. Yunan və başqa levantlı ilə yazılı şərt bağlayıram. Çünki onlarla iş görəndə bu, lazımi və faydalıdır. Ermənilərlə isə heç yazılı müqavilə ilə də iş görmürəm. Çünki hətta yazılı şərtin özü də səni ermənilərin yalanlarından və intriqalarından qorumur". Sözləri ilə əməlləri heç vaxt düz gəlməyən ermənilərin xarakterini açıa biləcək bundan daha kəsərli ifadə çətin ki, olsun.*

Ermənilər, doğrudan da sözlərinin, imzalarının arxasında durmayan millətdir. Belə olmasaydı, İkinci Qarabağ müharibəsindəki Qələbəmizdən sonra imzaladığı kapitulyasiya aktı ilə üzərinə götürdüyü öhdəliyi yerinə yetirər, Zəngəzur dəhlizinin açılmaması üçün min cür hoqqadan çıxmazdı. Müxtəlif bəhanələr gətirməz, qeyri-real, cəfəng layihələri ortaya ataraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaz, manipulyasiya ilə məşğul olmazdılar. Heç bir əhəmiyyəti olmayan "sülh kəsişməsi" layihəsini irəli sürüb öz məntiqsizliklərini açıq-aydın bildirməzdilər. Prezident İlham Əliyevin dediyi kimi: "Əgər siz bu layihəni doğrudan da həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz. Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır, bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və Ermənistanın özünün götürdüyü öhdəliklərinə əsaslanır". Dövlət başçısı, həmçinin özlərinə hörmət qoymayan erməniləri bir daha 10 noyabr kapitulyasiya aktını diqqətlə oxumağa, xüsusilə Zəngəzur dəhlizinin açılması ilə bağlı bəndi təkrar nəzərdən keçirməyə çağırıb. Qalib liderimizin bir tələbi var: Azərbaycandan Azərbaycana maneəsiz keçid təmin olunmalıdır!

Zəngəzur dəhlizi ifadəsi beynəlxalq leksikona İkinci Qarabağ müharibəsindən sonra salınıb və artıq dünyada da qəbul edilib. Azərbaycan tərəfi bu dəhlizin açılması üçün praktiki addımlar atır, çünki Ermənistanın torpaqlarımızı işğal etməsindən sonra bağlanan bu dəhlizin açılması tarixi zərurətdir. Zəngəzur dəhlizinin açılması 2020-ci il noyabrın 10-da və 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli bəyanatların maddələrində öz əksini tapıb. Bu bəyanatlar Prezident İlham Əliyevin qətiyyətli, prinsipial siyasəti, əzm və iradəsi düşünülmüş addımları sayəsində nail olduğumuz böyük Qələbəmizin rəsmi şəkildə təsdiqi deməkdir. Zəngəzur dəhlizinin açılması labüd və vacib məsələ kimi təsdiq edilib.

Ekspertlərin fikrincə, Zəngəzur dəhlizinin açılması, ilk növbədə, Ermənistanın özü üçün faydalıdır, çünki uzun illərdən bəri dalanda qalan Ermənistan blokadadan çıxmış olacaq. Yəni Azərbaycan və Türkiyə sərhədlərini Ermənistanın üzünə bağlayıb, iştirak etdiyimiz bütün beynəlxalq layihələr bu ölkədən yan keçir. Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat-logistika sektorunun əhəmiyyətli dərəcədə inkişaf etdirilməsi sayəsində Azərbaycanın siyasi, iqtisadi gücünün artması üçün real potensial formalaşacaq, ən önəmlisi isə azərbaycanlıların yenidən öz torpaqlarına sahib çıxmasını təmin edəcək. Buna isə Azərbaycan xalqının, dövlətinin həm haqqı, həm də hüququ var.

Ermənistanın baş naziri isə hələ də öz köhnə havasını oxumaqdadır: "Zəngəzur dəhlizini istəmirik, Sisyandan Naxçıvana yol var...", - deyən Nikol Paşinyan bu yaxınlarda keçirdiyi mətbuat konfransında deyib: "Ermənistan Naxçıvanla Azərbaycanın qərb hissəsi arasında maneəsiz dəmir yolu əlaqəsinin əleyhinə deyil, lakin Ermənistanın yurisdiksiyası sayəsində". Azərbaycan Prezidenti isə Paşinyandan bir neçə gün əvvəl qətiyyətlə bildirib: Naxçıvana yol maneəsiz olmalıdır.

Zəngəzur dəhlizinin əhəmiyyəti barədə indi bütün Qərb və Şərq mətbuatında, müsəlman birliyi dövlətlərinin KİV-də məqalələr dərc edilir. Bütün region dövlətləri Azərbaycan Prezidentinin təkliflərinə qoşulur, bu sahədə uğurla əməkdaşlıq etməkdə maraqlı olduqlarını bəyan edirlər. Bu mənada, Zəngəzur dəhlizinin açılması milli və strateji hədəfə çevrilib.

Bu dəhlizin vaxtilə bağlanması Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanı quru yolla respublikamızdan ayrı salıb. Ötən illər ərzində Naxçıvan sakinləri Azərbaycana gediş-gəlişdə, daşınmaların həyata keçirilməsində, enerji təhlükəsizliyinin təmin olunmasında böyük çətinliklər yaşasalar da, ölkəmizin iqtisadi gücü sayəsində problemlərin çoxu həll edilib, ancaq quru yolla gediş-gəlişlə bağlı çətinliklər hələ də qalmaqdadır. Doğrudur, muxtar respublikanın lazımi ehtiyacları müxtəlif yollarla ödənilir, ilk növbədə, İran İslam Respublikası ərazisindən yük, sərnişin daşınması həyata keçirilir, ancaq bu, iqtisadi cəhətdən əlverişsizdir. Problemin həlli üçün İran İslam Respublikası ilə əldə olunan razılaşmaya əsasən, avtomobil körpüsünün tikintisi davam etdirilir. Həmçinin Zəngilan rayonu və Muxtar Respublikanın ərazisində də körpülər inşa olunur, lakin bu, heç də Zəngəzur dəhlizindən imtina etmək demək deyil. Zəngəzur dəhlizi gec-tez açılacaq. Bir vaxt tikintisinə dünyanın aparıcı, güclü dövlətlərinin qarşı çıxdığı Bakı-Tbilisi-Qars dəmir yolunun açıldığı kimi. Ölkəmizə edilən təhdidlərə, təzyiqlərə baxmayaraq, Azərbaycan bu dəmir yolunun açılmasına böyük çətinliklər hesabına necə nail oldusa, Ermənistan və havadarlarının məkrli planlarını pozaraq Zəngəzur dəhlizinin də işə salınmasını reallaşdıracaq.

Gün gələcək Zəngəzur dəhlizinin ətrafında gedən mübahisələr, məntiqsiz danışıqlar unudulacaq, kol-kos basmış köhnə dəmir yolu təzələnəcək, yenə də bu dəmir relslər üzərindən Bakıdan, Azərbaycanın hər yerindən qatarlar şütüyəcək.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 13 fevral (№ 32).- S.12.